# Uğurlu strateji kursla gələcəyə inamla

## *Dövlət başçısı deyib ki, bu inkişafın təməlində düşünülmüş siyasət, apardığımız islahatlar, ölkənin gələcəyi ilə bağlı proqramlarımız dayanır*

**Regionların sosial-iqtisadi inkişafı iki Dövlət Proqramının uğurlu icrası nəticəsində Azərbaycanın bütün bölgələri hərtərəfli inkişaf edib və qeyri-neft sektorunun şaxələndirilməsi və sahələrinin dominiantlığı üçün güclü zəmin yaranıb. Bu nəticə neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində gələn gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi sayəsində baş verib. Belə ki, bu gün həmin güclü tərəqqi hesabına Azərbaycan iqtisadiyyatı artıq neft sektorundan asılılığı davamlı surətdə azaldır. Ölkə rəhbərliyi dövlətimizin hərtərəfli tərəqqisinə yönələn uğurlu, düşünülmüş siyasətini davam etdirməkdə və iqtisadiyyatın innovativ inkişafını gücləndirməkdədir.**

Davamlı surətdə müasir elmi-texniki əsaslarla yeni infrastruktur layihələrinin həyata keçirilməsi də regionların inkişafına güclü təkan verib. Ölkənin iqtisadiyyatda çoxşaxəli inkişafa nail olmağının nəticəsidir ki, real iqtisadiyyatın payı daxili məhsul istehsalında ilbəil artır. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarımilliyinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkədə milli təhlükəsizliyin yüksək səviyyədə qorunması, ictimai-siyasi sabitliyin möhkəmliyi və davamlı inkişaf barədə deyib: "Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur, ictimai-siyasi sabitlik möhkəmlənir. Ölkə qarşısında duran bütün əsas vəzifələr uğurla icra edilir. 2016-cı ildə də, - baxmayaraq ki, neftin qiyməti hələ də çox aşağı səviyyədədir, - Azərbaycan inamla inkişaf edir. Bunun təməlində düşünülmüş siyasət, apardığımız islahatlar və ölkəmizin gələcəyi ilə bağlı olan proqramlarımız dayanır. Azərbaycan uğurla inkişaf edir. Əminəm ki, biz bu ili də müvəffəqiyyətlə başa vuracağıq".

Müasir qlobal iqtisadi və maliyyə böhranının davam etdiyi şəraitdə bu inkişafın, artımın, dayanıqlığın səbəbi düzgün iqtisadi siyasət və rəqabətədavamlı, keyfiyyətli məhsul istehsalıdır. Dünya bazarlarının tələbatını ödəyən Azərbaycan məhsulları ölkənin beynəlxalq iqtisadiyyatda öz yerini möhkəmləndirməyə yardım edir. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursu dövrün tələb və təkliflərinə müvafiq həyata keçirən ölkə Prezidenti İlham Əliyev düzgün taktika ilə həyata keçirən. Beləliklə, bu gün Azərbaycan öz daxili imkanları hesabına güclü dövlət qurmağa nail olubdur. Xalqımızın dünya birliyində özünəməxsus nüfuzlu imzası vardır, dövlətin siyasi, iqtisadi müstəqilliyi ildən-ilə daha da möhkəmlənir. Ölkəmizin gələcək inkişafı üçün bütün imkanlardan istifadə edilir. Azərbaycanın daha da sürətli inkişafını, müasirliyini daim mühafizə etməsi və beləliklə, ölkəmizin uzunmüddətli tərəqqi strategiyasının təmin olunması reallıqdır. Hazırda Azərbaycan regionların inkişafı iki Dövlət Proqramını uğurla yerinə yetirərək inkişafın yeni mərhələsinə nikbinliklə qədəm qoyub. Təsadüfi deyil ki, on ildə ümumi daxili məhsul 3,4 dəfə, qeyri-neft sektoru 2,6 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə artmışdır. Hazırda da bütün bölgələrdə, rayonlarda quruculuq, abadlıq işləri aparılır, yeni müəssisələr yaradılır, inkişaf davamlı və sürətlidir. Bu gün artıq ölkə təsərrüfatının əsas sahələri daxili tələbatı ödəyir və xarici bazarlara nəzərdə tutulduğundan daha çox məhsul çıxarmağa nail olunur. İnkişafın dinamikliyinin qorunmasının nəricəsidir ki, regionların sosial-iqtisadi inkişafı üçüncü Dövlət Proqramının icrası da uğurludur. Azərbaycan Prezidenti Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarımilliyinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında davamlı inkişaf nəticəsində əldə olunan müsbət göstəricilər barədə deyib: "Baxmayaraq ki, il ərzində neftin qiyməti 3-4 dəfə düşüb, Azərbaycan inkişaf edir. Düzdür, ümumi daxili məhsul bir qədər azalıb. Bunun müxtəlif səbəbləri var. Ancaq sevindirici hal ondan ibarətdir ki, iqtisadiyyatın əsas sahələri - sənaye və kənd təsərrüfatı artıb. Yəni real sektor artıb. Sənaye istehsalı 0,6 faiz artıb. Düzdür, o qədər də böyük artım deyil, ancaq hesab edirəm ki, bu, böhran ili üçün müsbət haldır. Ölkəmizin qeyri-neft sənayesi 2,4 faiz artıb. Bu, çox ciddi artımdır və hesab edirəm ki, bu artım böyük ümidlər verir. Gələcəkdə bu, daha da artacaq... Əlbəttə ki, Azərbaycanda çox güclü sənaye kompleksi yaradılacaqdır. Kənd təsərrüfatı 3 faizdən bir qədər çox artıb. Bu da müsbət haldır, ancaq potensial daha da böyükdür. Bu il görülən və görüləcək işlər, həmçinin gələn il görüləcək işlər nəticəsində kənd təsərrüfatında çox böyük irəliləyiş olacaqdır".



(davamı 2-ci səhifədə)

# Uğurlu strateji kursla gələcəyə inamla

***Dövlət başçısı deyib ki, bu inkişafın təməlində düşünülmüş siyasət, apardığımız islahatlar, ölkənin gələcəyi ilə bağlı proqramlarımız dayanır***

**(əvvəli 1-ci səhifədə)**

Bu rəqəmlər həm də Azərbaycanın beynəlxalq bazara rəqabətə davamlı mallarla girdiyini qeyd edən nüfuzlu beynəlxalq qurumların verdiyi qiyməti sübut etməkdir. Qlobal böhranın törətdiyi fəsadların hələ qaldığı bir şəraitdə qazanılan bu müvəffəqiyyət düşünülmüş, əvvəlcədən müdrikliklə proqnozlaşdırılmış, sosial-iqtisadi inkişaf proqramlarının həm beynəlxalq, həm daxili amilləri nəzərə almaqla, milli mənafelərə uyğun həyata keçirilməsi ilə bağlıdır. Düşünülmüş, elmi-praktiki baxımdan əsaslandırılmış sosial-iqtisadi layihələrin reallaşdırılmasının nəticələri də göz qabağındadır. Bu, iqtisadi proses bütün ölkə bölgələrinin paralel şəkildə tərəqqisini təmin etmək məqsədidir. Neft sektorundan gələn gəlirlərin gecikmədən Azərbaycanın qeyri-neft sektoruna yönəldilməsi və nəzərdə tutulan vəzifələrin, layihələrin vaxtında, dinamik, beynəlxalq səviyyəyə uyğun həyata keçirilməsi, artıq ölkəni böyük həcmdə ixracatçı dövlətə çevirməkdədir. Diqqətin regionlarda bütün təsərrüfat potensialının müasir səviyyəyə uyğun və yeni sahələr yaradılaraq dövriyyəyə cəlb edilməsinə yönəldilməsi qazanılan uğurlara səbəb olmuşdur. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının və digər zəruri layihələrin bilavasitə ölkə Prezidentinin şəxsən nəzarəti və rəhbərliyi ilə həyata keçirilməsi həm də hər bir müvafiq vəzifə sahibində, əlaqədar şəxslərdə çox böyük məsuliyyət hissi yaradılması deməkdir. Bütün bu müsbət prosesi müşahidə edən və yüksək qiymətləndirən xarici investorlar bu gün də Azərbaycanı sərmayə yatırımı üçün cəlbedici ölkə kimi diqqətdə saxlayırlar. Ölkə rəhbəri bu ilin altı ayında iqtisadiyyata yönəldilən investisiya barədə deyib: "Ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulub. Bu da çox müsbət haldır. Azərbaycan sərmayə qoyuluşu üçün cəlbedici ölkədir. Bu il daha çox xarici sərmayə qoyulubdur. Mən bunu da müsbət qiymətləndirirəm. Çünki daxili sərmayələr azalır. Ona görə ki, indi bizim investisiya proqramımız ixtisar olunub. Bu da təbiidir. Ancaq xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkə kimi qalır və əminəm ki, gələcəkdə bu proses davam etdiriləcəkdir".

**Göründüyü kimi, ölkə rəhbərliyinin siyasi kursunun əsasında milli mənafelərin nəzərə alınması, düzgün beynəlxalq siyasi-iqtisadi proseslərin təhlili, dünya dövlətləri ilə qarşılıqlı mənafeli əməkdaşlığın genişlənməsi durur. Siyasi müdriklik və müstəqil innovativ iqtisadiyyat beynəlxalq əlaqələrdə dövlətin maraqlarının qorunmasına güclü zəmin yaradır, geosiyasi mövqeyinin əhəmiyyətini artırır, təhlükəsizliyini möhkəmləndirir, davamlı və sabit inkişaf prosesini təmin edir. Azərbaycan düşünülmüş uğurlu strateji kursla gələcəyə inamla gedir .**

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**